# UNİVERSİTET KİTABXANALARI QLOBAL İNFORMASİYA MÜHİTİNDƏ
## (Azərbaycan Respublikasının Ali təhsil müəssisələrinin iş təcrübəsi əsasında)

**Rəşad Qardaşov**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası*
*tarix üzrə fəlsəfə doktoru*
*qardashov@inbox.ru*

***Xülasə:*** *Məqalədə müasir dövrdə ali təhsil müəssisələrinin kitabxana-informasiya mərkəzlərinin tədris ədəbiyyatına dair sənəd resurslarının kompleks şəkildə əhatəliyini təmin edilməsi məsələləri barədə məluçat verilmişdir. Universitet kitabxanasının ali məktəbin aparıcı struktur qurumlarından biri olması, təlim-tərbiyə və elmi tədqiqat prosesini, tədris, elmi, metodiki ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən mənəvi və intellektual əlaqələrin yayılması mərkəzinə çevrilməsi barədə yerli və beynəlxalq təcrübəyə əsaslanan faktlar əsasında təhlil edilmişdir. Praktik əhəmiyyəti nəzərə alınaraq BDU-nun elmi kitabxanasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kitabxana-İnformasiya Mərkəzinin, "Bakı Mühəndislik Universitetinin kitabxanasının, "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) Əsaslı kitabxanası, Azərbaycan Dillər Universiteti kitabxanasının iş təcrübəsinə nəzər salınmışdır.*

***Açar sözlər:*** *Universitet kitabxanaları, kitabxana fondu, kommunikasiya mərkəzləri, Nümunəvi əsasnamə, elektron kataloq.*

Universitetlərin reytinqi keyfiyyətli təhsili ilə yanaşı kitabxanası və onun xidmət səviyyəsi ilə də ölçülür. Kitabxanalarda müasir texnologiyaların tətbiqi klassik kitabxana xidmət modelinin təkmilləşməsinə və yeni mərhələyə keçməsinə səbəb olmuşdur. Azərbaycan Ali təhsil müəssisələrinin kitabxanaları keçmişlə bu günü özündə cəmləşdirərək, gələcək fəaliyyətinin daha da zənginləşməsi istiqamətində çalışır. Müasir yanaşma və geniş informasiya axınının elmi inkişafa yönəldilməsi, oxucuların mümkün qədər geniş və mütərəqqi informasiya resurslarına çıxış imkanının təmin edilməsi məqsədilə universitet kitabxanaları tərəfindən bir sıra yeniliklər həyata keçirilməkdədir. Universitetdə mövcud olan təhsil səviyyəsinin və formasının dəyişməsi ilə bağlı mövcud vəziyyət kitabxanaları öz məqsədlərini yenidən düşünməyə, fəaliyyətinin yeni məqsəd və vəzifələrini müəyyənləşdirməyi yenidən nəzərdən keçirməyə məcbur edir. Universitet kitabxanaları artıq təhsil müəssisələrində fəaliyyət göstərən funksiyaları öz üzərinə götürən çoxfunksiyalı qurumlar kimi çıxış edir.

Universitet kitabxanalarının müasir dövrdə üzərinə düşən ən vacib vəzifələrdən biri də onların elmi kommunikasiya mərkəzi kimi çıxış etməsidir. Elmi kommunikasiya formal və qeyri-formal olmaqla iki yerə ayrılır. **Formal bölməyə** elmi-texniki sənədlərin nəşri və yayılması, **qeyri-formal** bölməyə isə mütəxəssislərin şəxsi əlaqələri, elmi simpozium, konqreslərdə iştraklar daxildir. Universitet kitabxanalarının elmi kommunikasiya sistemləri ilə əlaqələri bu iki formada özünü biruzə verir və istər formal istərsədə qeyri formal səviyyədə elmi mərkəz funksiyasını yerinə yetirir. Universitet kitabxanalarının elmi kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsi istər yerli, istərsə də beynəlxalq təcrübədə hüquqi normativ aktlara, qaydalara qəbul edilmiş qanunlara və təlimat xarakterli göstəricilərə əsaslanır. Ölkə təcrübəsindən əgər biz yola çıxarıqsa, söhbət bu sahədə qəbul edilmiş hüquq normativ aktları, qanunları xüsusi qeyd edə bilərik. Məsələn: 1999-cu ildə qəbul edilmiş Kitabxana işi haqqında qanunda, 2008-2013-ci illəri əhatə edən Azərbaycan Respublikasında Kitabxana-informasiya fəaliyyətinin yaxşılaşdırılması haqqında dövlət tədbirlər planında, həmçinin ali təhsil müəssisələrinin elmi kitabxanalarının nümunəvi əsasnaməsində Universitet Kitabxanasına verilən tələblər, Universitet Kitabxanasının dövrün tələblərinə cavab verməsi üçün üzərinə düşən vəzifələr aşkar şəkildə göstərilmişdir.[1, 2, 3, 4, 5] Buna görə də Universitet Kitabxanalarının elmi-kommunikasiya mərkəzləri kimi fəaliyyət göstərməsi birbaşa qəbul edilmiş qanunlara və təlimat xarakterli göstəricilərə əsaslanmalıdır. Universitet Kitabxanalarının elmi-kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsi həmçinin beynəlxalq təcrübədə də öz əksini tapmışdır. Belə ki, 2017-ci ildə qəbul edilmiş Böyük Britaniya modelində və konsepsiyasında belə bir fikir vardır: **"Gələcəyin Universitet Kitabxanalarının akademik xəritəsi necə olmalıdır?**

Hazırlanmış akademik xəritədə Universitet Kitabxanalarının gələcək inkişafı 10 əsas paradiqmada öz əksini tapmışdır. Məhz təklif edilən bu 10 paradiqmanın 5 -ci paradiqması Universitet Kitabxanalarının elmi-kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsinə əsaslanır. Universitet Kitabxanalarının bu elmi-kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsi özüdə müəyyən alt seqmentlərdən ibarətdir və bu seqmentlər bu formada təzahür edir: [10,38]

Qeyd olunduğu kimi bu modeldə Universitet Kitabxanasının elmi- kommunikasiya mərkəzi kimi fəaliyyət göstərməsi üçün 6 alt seqment mövcuddur. Bu alt seqmentləri belə qruplaşdırmaq olar :

**1. Universitet Kitabxanası tədrisin əsas mərkəzi olmalıdır.** Yəni Universitet Kitabxanasının üzərinə düşən ilk vəzifə tədris ədəbiyyatı ilə elmi – kommunikasiya mərkəzinə töhfə verməkdir .

**2. Universitet Kitabxanası tədqiqat mərkəzi olmalıdır**. Bu alt seqmenti izah edərkən bir məsələnin üzərində xüsusi dayanmaq lazımdır ki, o da "Kitabxana işi haqqında qanun"da göstərildiyi kimi Universitet Kitabxanasının deyil, bütün tip kitabxanaların tədrislə yanaşı həm tədqiqat, həm informasiya, həm də təlim mərkəzi kimi fəaliyyət göstərməsidir. Bu baxımdan Universitet Kitabxanaları həmdə elmi tədqiqat mərkəzi kimi fəaliyyət göstərməlidir.

**3. Universitet Kitabxanası Universitet kompusunun əsas mərkəzinə çevrilməlidir.** Göründüyü kimi Avropa və xüsusilə Britaniya modelində Universitet Kitabxanasının təkcə elmi tədris ədəbiyyatı ilə məşğul olması deyil, həm də elmi-kommunikasiyada kampusun mərkəzinə çevrilməsi diqqəti cəlb edir.

**4. Universitet Kitabxanası effektiv idarəetmədə iştirak etməlidir.** Kitabxanaların fəaliyyət göstərməsi və onların dövrün tələblərinə cavab verməsi üçün effektiv idarə üsulları olmalıdır ki ,bu idarə üsulunda da kitabxanaların üzərinə düşən vəzifələr araşdırmalı və dövrün tələbləri səviyyəsində qurulmalıdır.

**5. Universitet Kitabxanası korporativ şəbəkəyə malik olmalıdır.** Müasir dövrün tələblərindən biridə odur ki, Universitet Kitabxanası ərazicə paylanmış şəbəkələrin vahid mərkəzdən idarə edilməsinə malik olmalıdır. Məhz buna görə də, korporativ şəbəkənin olması ən vacib amillərdən biridir .

**6. Universitet kitabxanası informasiya siyasəti və mühəndisliyini həyata keçirməlidir.** İnformasiya haqqında qanunda da göstərildiyi kimi informasiyanı ötürmək, emal etmək, analiz etmək bir sözlə informasiya mühəndisliyini həyata keçirmək kitabxanaların üzərinə düşən ən vacib vəzifələrdən biridir. [10, 39]

Göründüyü kimi bu paradiqmanın alt seqmentləri müasir dövr və gələcəyin Universitet Kitabxanasının müvafiq vektorial istiqamətlərini özündə ehtiva edir. Bu gün Azərbaycan Respublikasının Ali təhsil müəssisələrinin elmi kitabxanaları və ya kitabxana – informasiya mərkəzləri təqdim olunan ve tövsiyə olunan bu paradiqmanın müvafiq seqmentlərini hansı səviyyədə özündə ehtiva edir?

Bu suala aydınlıq gətirmək lazımdır. Müvafiq mənzərə və nəzərə çarpacaq müddəalar onu deməyə imkan verir ki, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən 50 dən artıq Ali təhsil müəssisəsinin elmi kitabxanası təqdim olunan və tələb olunan bu tövsiyələrin müvafiq formada bir qisminə cavab verir. Aşağıda adları çəkilən Universitetlərin elmi kitabxanalarının sənəd-informasiya dövrüyyəsinə, sənəd fonduna, informasiya təminatına və beynəlxalq aləmə çıxışına diqqət saldıqda aydın şəkildə görürük ki, bu sahə üzrə çox mütərəqqi addımlar atılmaqdadır.

Ali tədris ocaqlardan ilki olan **Bakı Dövlət Universitetinin Elmi Kitabxanası** haqqında qeyd edə bilərik ki, müasir dövrdə cəmiyyətin dolğun, dəqiq və operativ informasiyaya olan tələbatının sürətlə inkişaf etməsi şəraitində kitabxana işinin kompüterləşdirilməsi böyük aktuallıq kəsb edir. BDU-nun Elmi kitabxanasının bazası əsasında yaradılan bu laboratoriyanın ilkin məqsədi universitetin kitabxana-informasiya fəaliyyətində bütün kitabxana proseslərinin mərhələlərlə kompüterləşdirilməsi üçün yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı nəzəri və təşkilati məsələlərlə, problemlərlə işləməkdir. İlkin mərhələdə kitabxanada qorunan elmi, tədris və digər ədəbiyyatlardan ibarət milli kitab fondunun elektron kataloqu, verilənlər bazası yaradılmışdır. 2001-ci ildən respublika ali məktəb kitabxanaları arasında ilk dəfə olaraq, BDU-nun kitabxanasında elektron kataloqun yaradılmasına başlanılmışdır. Hazırda kitabxananın Azərbaycan dilində olan fondu tam elektron kataloqa daxil edilmişdir. Kitabxanada Azərbaycan və xarici dillərdə olan dövri nəşrlər, dissertasiya və nadir kitablar da elektron kataloqda (EK) öz əksini tapmışdır. Elektron kataloq beynəlxalq kompüter şəbəkəsi vasitəsi ilə oxuculara dünyanın istənilən nöqtəsində xidmət göstərməyə imkan verir. Hazırda elmi kitabxana tammətnli elektron kitabxana yaradılmışdır. BDU-nun 100 illik yubileyi ilə əlaqədar kitabxananın yeniləşmiş elektron səhifəsi universitetin bdu.az saytında yerləşdirilmişdir. İstifadəçilər bu sayta daxil olmaqla, kitabxana haqqında dolğun məlumat ala, eyni zamanda, elektron kataloq vasitəsilə On-line rejimində daha operativ axtarış apara bilərlər. Hazırda elmi kitabxana respublikanın Ali Məktəb Kitabxanalarının Metodiki Mərkəzi olmaqla yanaşı, Mərkəzi Metodiki Kitabxana Komissiyasının, Azərbaycanın Kitabxana İşinin İnkişafı Assosiasiyasının, Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin və Avrasiya Kitabxanaşünaslıq Assambleyasının üzvüdür. [6, 210]

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kitabxana-İnformasiya Mərkəzinin** fondunu 684.772 nüsxə ədəbiyyat, o cümlədən kitab və kitabçalar, jurnallar, dissertasiyalar, avtoreferatlar, universitet müəllimlərinin elmi-tədqiqat işləri, dərslik və dərs vəsaitləri təşkil edir.ADPU-nun Kitabxana-İnformasiya Mərkəzi həcminə görə, respublikamızın universitet kitabxanaları arasında ikinci yerdədir. Kitabxana-İnformasiya Mərkəzi 5 şöbəsi, 27 əməkdaşı ilə oxuculara xidmət edir. Kitabxana-İnformasiya Mərkəzinin oxucularının sayı 11299 nəfərdir. 2 ixtisaslaşmış xidmət şöbəsi: dəqiq və humanitar elmlər şöbələri var. 3 tədris binasında kitabxana və oxu zalı fəaliyyət göstərir. Kitabxana-İnformasiya Mərkəzinin 230 yerlik oxu zalları oxucuların istifadəsindədir. ADPU-da elektron kataloq yaradılıb, elektron kitabxananın yaradılması istiqamətində işlər uğurla davam edir. [12]

**Bakı Mühəndislik Universitetinin kitabxana fondunda** hazırda 106.000-ə yaxın kitab və jurnal mövcuddur. Bunlardan 18.000 Azərbaycan, 28.000 türk, 32.000 ingilis, 2000 rus, 1000 ərəb-fars, 150 alman, 90 fransız, 103 ispan dilli ədəbiyyatın və digər azsaylı xalqların dillərinin (özbək, türkmən, qırğız, ukrayna və s. ) payına düşür. Kitabxanamız onlayn sistem üzərindən fəaliyyət göstərir, tələbələr, müəllimlər kitabları online sifariş verməklə əldə edirlər. Sifarişlər maksimum 15 dəqiqə ərzində hazır olur. Sifarişin qüvvədə olma müddəti 24 saatdır. Tədris prosesində keçirilən fənlər üzrə istifadə olunan dərslik və dərs vəsaitləri ilə kitabxana tələbələri pulsuz təmin edir. Kitabxana fondunda 5000-dən çox dərslik mövcuddur. Universitet əməkdaşları ilə yanaşı, digər müəlliflər tərəfindən nəşr olunan tədris-metodiki vəsaitlər də tədris olunan fənlərə dair informasiya mənbələrin kifayət qədər olmasına və müasirləşməsinə səbəb olur. Universitetdə mövcud olan ixtisaslara aid kitablarımız öz aktuallığl ilə seçilir və tələbə-müəllim kontingenti tərəfindən istifadə olunur. Bundan əlavə, universitetimizin kitabxanası digər yerli universitetlərlə əməkdaşlıq edir. [13]

**Qərbi Kaspi Universitetinin kitabxanası** 65.000-dən çox ədəbiyyat, 550-dən çox mikroforma və informasiyanın başqa mənbələri ilə ölkədə ən zəngin kitabxanalardan biridir. Kitabxana Fondunda ingilis dilində 17 000-dən

çox ədəbiyyat mövcuddur. Eyni zamanda, universitetdə BMT-nin Sosial İnkişaf üçün Tədqiqat İnstitutunun (UNRISD), BMT-nin Ümumdünya Turizm Təşkilatının, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının və Beynəlxalq Əmək Təşkilatının Depozitariya Kitabxanaları yaradılıb. Hazırda onlarla nüfuzlu beynəlxalq təşkilatdan kitabxana fonduna ədəbiyyatlar daxil olur. Kitabxananın EBSCO-nəşriyyatının EBSCO-host və OPscience, The Royal Society, Open Access booksto DOAB tam mətnli onlayn məlumat bazalarına çıxış var. Məlumat bazalarında 9.000 jurnal (onlardan 7851-i resenziya olunan) ictimai, humanitar, kompüter, mühəndislik, (neft, qaz, və s.) fizika, kimya, nəqliyyat, və s. sahələri əhatə edən jurnalların yerləşdiyi verilənlər bazası və onların seçilmiş sayına CD/DVD formatında təminatı və 3000-dən artıq tam mətnli kitab və broşüralar və s. informasiya resurslarından istifadə təmin olunub. [16]

**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) Əsaslı kitabxanası** 1920-ci ildə Bakı Texniki Məktəbinin nəzdində təşkil edilib. Həmin dövrdə kitabxananın kitab fondu 6500 nüsxə və oxucusu 300 nəfər olub. Hazırda Əsaslı kitabxananın 700 minə yaxın kitab fondu var. Fond zəngin və universal olmaqla azərbaycan, rus, xarici dillərdə olan kitablardan, jurnal və dövri mətbuatdan,standart və patentlərdən, elektron daşıyıcılar və digər çap məhsullarından ibarətdir. [14]

**Azərbaycan Dillər Universiteti kitabxanası (ADU)** zəngin kitabxana fonduna malikdir. Kitabxananın fondunda ümumilikdə 462 mindən çox kitab var. Geniş oxucu auditoriyasına malik olan universitet kitabxanası professor-müəllim heyətinə, tələbə kontingentinə və bütün texniki işçilərə xidmət edir. Hazırki vəziyyətdə kitabxanada oxucularının sayı 7.794 nəfərdir ki, bunların 1394 nəfəri professor-müəllim, işçi, 6.400 nəfəri tələbədir. Kitabxanamızda hansı kitabların olduğunu oxucu öyrənməsi üçün "adu.edu.az.elektron kitabxana" ünvanında kataloq bölməsində axtarış edə bilərlər. [15]

Universitet kitabxanalarının elmi kommunikasiya mərkəzi kimi əsas fundamental məzmununda onların elektron fondunun komplektləşdirilməsidə mühüm aktuallıq kəsb edir. Elektron nəşrlərin, sənədlərin və digər bu kimi elektron resursların universitet kitabxanalarda komplektləşdirilməsi mənbələri və üsulları fərqlidir. Elektron sənədlərin və başqa resursların universitet kitabxana fondlarında toplanması üçün ilk növbədə universitet kitabxanasının internetlə geniş əlaqələndirilmiş e-kitabxanası və ya heç olmasa müasir tələblərə cavab verən lokal komputer şəbəkəsi olmalıdır. Lokal komputer şəbəkəsi olan kitabxana disklərdə yazılan kitablar, jurnallar və profilə uyğun olan məlumat bazaları ilə komplektləşdirilə bilər. Digər tərəfdən elektron formata keçmə yolu komplektləşdirilmənin daxili mənbəyi hesab edilir. Elektron informasiyaların komplektləşdirmə mənbələrinin seçilməsində peşəkar kitabxanaçının aparıcı rolunu əvəz edən başqa bir vasitə yoxdur. Elektron informasiya resursları 3 tərkib hissədən ibarətdir:

- Hər kəs üçün açıq olan şəbəkə resursları (ödənişsiz);
- Kağız sənədlərdə olduğu kimi portativ informasiya daşıyıcısı olan kitab, jurnal və digər növ sənədləri komplektləşdirmək;



- Elektron informasiyaların komplektləşdirilməsində önəmli əhəmiyyət daşıyan ödənişli şəbəkələrin resursları. [7,68]

İnternetdən istifadə etmək üçün elektron informasiyaların serverə köçürməsi zamanı resurs sahiblərindən icazə almaq lazımdır. Kitabxana hər hansı bir web-sənədi və yaxud da biblioqrafik məlumat bazasını öz elektron fonduna daxil etmək istəyirsə, sənəd sahibindən təqribi razılıq almalı, yəni onun saytında qeydiyyatdan keçməlidir.

Xarici ölkələrdə portativ üsuldan XX əsrin 80-ci illərindən tətbiq olunmasına baxmayaraq bizdə bu sahədə işlər zəifdir. Universitet kitabxanalarında çap versiyası əsasında elektron kitabları hazırlamaq üçün çoxlu texniki avadanlıq tələb edilir, bu da mürəkkəb prosesdir və nisbətən daha baha başa gəlir. Ödənişli şəbəkə resurslarına aktual və keyfiyyətli sənədlər mühafizə olunur. Onların çox hissəsinin çap versiyası olmur. Burada lisenziyalaşdırma üsulundan istifadə edilir. Lisenziya müqaviləsi informasiya üsulu da təchizatçısı ilə onun tələbatçısının əlaqələndirilməsidir. Lisenziyanın hüquqi əsası müəlliflik hüququ haqqında qanundur. Azərbaycan Respublikasında da bu istiqamətdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanun qəbul edilmişdir. Elektron informasiyanın lisenziyasının əsas xüsusiyyəti odur ki, o sahiblik hüququ deyil, yalnız istifadə hüququ verir. Lisenziya ilə elektron informasiyanın istifadəsinə müxtəlif şərtlər və məhdudiyyətlər qoyulur.

**Nəticə** olaraq qeyd edə bilərik ki, universitet kitabxanaları elmi kommunikasiyaların mərkəzi kimi bütövlükdə ictimaiyyəti dəstəkləyir və gələcək nəslin qlobal liderləri kimi yetişməsinə kömək edir. Tələbələrimizə kitab və rəqəmsal materiallarımızdan tam istifadə etmək üçün lazımi informasiya mənbələri və təlimatlar verən akademik təcrübə təqdim edirik. Günbəgün əhəmiyyətli elmi məlumat kolleksiyası hazırlanıb, tələbələrimizə, müəllim və işçilərimizə təhsil və tədqiqat məqsədlərini yerinə yetirmək üçün lazım olan müxtəlif mənbələr ilə təmin etməyə çalışırıq.universitet kitabxanaları yenilikləri özündə əks etdirən və tədris cəmiyyətinə təqdim edən sərbəst girişli rəqəmsal kitabxana kimi, ümumi təhsil sahələrini əhatə edən artan kolleksiyalarla müxtəlif dillərdə tədris və öyrənmə mövzularına yönəlmiş keyfiyyətli çap və elektron qaynaqlardan ən səmərəli istifadəsini təmin edir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qaz, 1998, 23 iyun.
2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu// "Azərbaycan" qazeti, 1999, 14 mart.
3. Azərbaycanda Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"nin təsdiq edilməsibarədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Respublika" qaz., Bakı, 2008, 7 oktyabr.
4. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qaz, Bakı, 2007, 21 aprel.

5. Ali təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi/ "Azərbaycan" qaz, Bakı, 2016, 5 iyul
6. Xələfov A. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası – 100: Monoqrafiya. Bakı, "Elm və Təhsil", 2019. – 264 s
7. Qardaşov R. Elektron kataloq. Dərs vəsaiti. – Bakı, Mütərcim, 2019. – 136 s.
8. Инфосфера и инфология / А. Д. Иванников [и др.]. – Москва: Торус Пресс, 2013. – 175 с.
9. Концепция развития вузовских библиотек России. Научная библиотека ТГУ. – 2018.
10. PinfieldSt.., Rutter S. Mapping the future of Academic Libraries. A report for SCONUL. – 2017. November
11. bsu. edu.az
12. apdu.edu.az
13. Beu.edu.az
14. asoiu.edu.az
15. adu.edu.az
16. wcu.edu.az

**Р.Гардашов**

## УНИВЕРСИТЕТСКИЕ БИБЛИОТЕКИ В ГЛОБАЛЬНОЙ ИНФОРМАЦИОННОЙ СРЕДЕ
### (в практике работы высших учебных заведений Азербайджанской Республики)

***Резюме:*** *В статье представлена информация по вопросам обеспечения комплексного охвата документальными ресурсами по учебной литературе библиотечно-информационных центров высших учебных заведений в современное время. Анализ на основе фактов отечественного и зарубежного опыта о том, что университетская библиотека является одним из ведущих структурных учреждений высшего учебного заведения, являющиеся центром пропаганды знаний и распространения нравственных и интеллектуальных отношений, обеспечивающих образовательный и научно-исследовательский процесс, учебной, научной, методической литературой и информационными материалами. Учитывая практическое значение, был рассмотрен опыт работы научной библиотеки БГУ, Библиотечно-информационного центра Азербайджанского государственного педагогического университета (АГПУ), библиотеки Бакинского инженерного университета, библиотеки Азербайджанского государственного университета нефти и промышленности (АГУНП), библиотеки Азербайджанского университета языков.*

***Ключевые слова:*** *университетские библиотеки, библиотечный фонд, коммуникационные центры, электронный каталог*



**R.Qardashov**

## UNIVERSITY LIBRARIES IN A GLOBAL INFORMATION ENVIRONMENT
### (In the work experience of the higher education institutions of the Republic of Azerbaijan)

***Summary:*** *The article acquaint providing comprehensive coverage issues of document resources on educational literature of library-information centers of higher education institutions. On the basis of facts based on local and international experience was analyzed, that the university library is one of the leading structural institutions of the higher education institution, becoming a center for the dissemination of spiritual and intellectual relations, that provides educational, scientific, methodical literature, information materials and promotes knowledge in the educational and scientific-research process. Considering the practical importance is reviewed work experience of Scientific Library of Baku State University, Library and Information Center of Azerbaijan State Pedagogical University, Library of Baku Engineering University, Fundamental Library of Azerbaijan State Oil and Industry University, Library of Azerbaijan University of Languages.*

***Keywords:*** *University Libraries, Library collection, communication centers, Model By-Laws, electronic catalog*

***Rəyçi:*** *t.ü.f.dok., dos.* ***S.A.Xələfova***